Food and Agriculture Organization of the United Nations

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# FERMERLƏR ÜÇÜN SİLOSUN HAZIRLANMASI İLƏ BAĞLI MƏSLƏHƏTLƏR

Fermer təsərrüfatlarında çətin zamanlara hazırlıqlı olmaq həmişə vacibdir. Kiçik həcmli heyvandarlıq təsərrüfatı sahibinin edə biləcəyi işlərdən biri də qışlama mövsümü üçün kifayət qədər heyvan yeminin hazırlanmasıdır. Bütün il boyu kifayət qədər yüksək keyfiyyətli yemlə təmin olunmaq üçün siz müxtəlif bitkiçilik məhsullarını silosa çevirə bilərsiniz. Burada qeyd edilən məsləhətlər sizə kiçik miqdarda silos hazırlamağa kömək edəcəkdir.

**Məsləhət:** Yadda saxlayın ki, böyük və ya kiçik təsərrüfat sahibiolmağınızdan asılı olmayaraq hər bir fermer silos hazırlaya bilər.

**Məsləhət:** Yaxşı hazırlanmış silos əvəollunmaz heyvan yemidir, eyni zamanda məhsuldarlığın yüksəlməsinə və heyvanlarınızın sağlamlığınına zəmin yaradır.

## Silos hazırlanması üçün tərkib

- Ot (yaşıl kütlə);
- Qarğıdalı, darı, yulaf, sorqum (Yaşıl kütlə);
- Yonca (Lucerne) və ala-yonca;
- Meyvə və digər bitkiçilik məhsullarının emal tullantıları;
- Kimyəvi əlavələr (natrium pirosulfat)
- Digər yerli bitkilərin yaşıl kütləsi:
- Və ya bunların qatışıqları.

## Silos hazırlamaq üçün addımlar

1. Silos üçün yer hazırlayın;
2. Yaşıl kütləni biçin və doğrayın;
3. Yaşıl kütləni soluxlaşdırın (65-80 faiz rütubətlilik);
4. Yaşıl kütləni bir yerə yığın və sıxın;
5. Yaşıl kütlənin üzərini örtün.




**Məsləhət:** Kimyəvi əlavələr silosun qıcqırmasının sürətlənməsinə və dad və qoxunu yaxşılaşdırdığı üçün yem qəbulunu artırmağa kömək edə bilir.

# Silos: konteynerlər və kisələr

200 m3 tutumu olan konteynerlər və kisələrdə silosu saxlamaq daha effektiv ola bilər.  Yaşıl kütləni  sıx bir şəkildə yığmaq vacibdir



Yaşıl kütləni, xəndək, bunker, divarları olan və ya olmayan daha böyük yerin səthində və ya yerin altında siloslamaq olar.
Yaşıl kütlə polietilen örtüklə örtülməli, işlənmiş şinlər və ya qum yastıqları ilə isə üzəri bərkidilməlidir.

**Məsləhət:**

Silosunuzu ağaclardan, su mənbələrindən, evlərdən və drenajlardan uzaq səthi sərt ərazidə qurun və kifayət qədər drenaj ilə təmin edin.




**Məsləhət:**

Silosun hazırlanmasında risklərin qarışısının alınması, zərərdən yayınmaq üçün bir neçə silos xəndəyindən istifadə edin.



## Düzgün zamanda məhsul yığımı

Yaşıl kütlənin keyfiyyəti yaz və payızda daha yaxşıdır. Paxlalı bitkilər 10% çiçəkləmə mərhələsinə çatdıqda yığılmalıdır. Qarğıdalı təxminən dənələrinin 30 %-i sarı olduqda yığılmalıdır.

**Məsləhət:** 20 və 30 sm arasmda olduqda otu biçin (iki yumruq üzəri və baş barmaqdan uzun).

**Məsləhət:** Günortadan sonra biçin (yemdə daha çox şəkər olur).





“ top üsulu”

## Yemi soluxlaşdırın

Silosu hazırlamadan öncə müəyyən dərəcəyə qədər yemi soluxlaşdırın. Yüksək keyfiyyətli silos istehsal etmək üçün onun tərkibindəki suyun miqdarını düzgün tənzimləmək vacibdir. Bunun üçün top metodundan istifadə edə bilərsiniz:

1. Bir ovuc doğranmış yem götürün;
2. 20-30 saniyə əlinizdə yumrulayın və top forması alanadək sıxın;
3. Sərbəst buraxın.

Bundan sonra ovçunuzda bir az nəm hiss edəcəksiniz və sonra bu "top" yavaş-yavaş dağılacaq; bu zaman artıq yem silos üçün hazırdır.

## Yemin doğranması

2 və ya 4 sm uzunluğunda doğrayın; Köhnə yem bir az qısa, yeni yem isə daha uzun kəsilə bilər.



Yem doğrayan

## Silosun doldurulması

Silosu mümkün qədər tez doldurmaq və sıxışdırmaq lazımdır. Yemi silosun ön hissəsinə yerləşdirin və hazırlanmış tərkibi silosun içərisinə nazik bir təbəqədə (maksimum 15 sm) yayın, bundan sonra növbəti qat qoymadan əvvəl sıxışdırın.



doldurmadan əvvəl örtüyün hazırlanması

**Məsləhət:**
Silosu doldurmağa başlamazdan əvvəl, həmin ərazinin xarici kənarına və silosdakı xəndəyin divarlarına plastik örtüyü yayın və kənarlara doğru sallanmasını təmin edin.

## Silosun sıxılması

Sıxılma yüksək keyfiyyətli silos hazırlamaq üçün vacibdir və bu prosesdə aşağıdakılardan istifadə edə bilərsiniz:

- İnsanların və ya daşların çəkisi;
- Su və ya qum ilə doldurulmuş barellər;
- Traktor kimi nəqliyyat vasitələri;
- Mal-qara;
- Digər ağır əşyalar.



## Silosun örtülməsi

Silosun üzəri dərhal örtülməlidir, məsələn plastik bir örtüklə. Örtüyün kənarları şinlər və ya qum torbaları ilə bərkidilməlidir.

**Məsləhət:** Örtüyün açılmaması və yemin isinməməsi üçün daimi olaraq silosu yoxlayın, əgər isti hava daxil olarsa silosunuzun keyfiyyətinə mənfi təsir edəcək.

## Silos nə vaxt istifadə üçün hazır olacaq?

Ən azı iki ay gözlədikdən sonra silos istifadə üçün hazır olacaq.

## Keyfiyyətini yoxlayın

Silosla heyvanları yemləməzdən əvvəl onun keyfiyyətini yoxlayın. Əgər görsəniz ki silos çürüyüb, kiflənib, pis qoxu gəlir və ya torpaq qalığı varsa, bu silosla heyvanlarınızı yemləməyin.

**Məsləhət:** Silos xoş təsirli turşu qoxusu verməlidir, misal olaraq çürümüş qatıq və ya süd.

## Silosun açılıb bağlanması

Silosun yalnız təxminən 3 - 4 gün ərzində istifadə edəcəyiniz hissəsini açmağa çalışın və yemləmə zamanı qalan hissənin mümkün qədər yaxşı örtülməsini təmin edin.

**Məsləhət:** Silosun tərkibində yüksək miqdarda qida maddəsi var və onu əvvəlcə ən yaxşı heyvanlarınıza verməyiniz məsləhətdir.

**Məsləhət:** Qoxu səbəbiylə inəklərin silos yeməsi əwəl bir az zaman tələb edə bilər, inəkləri silosu yeməsi üçün silosa biraz bəhməz və ya digər konsentrat əlavə edə bilərsiniz.

Bu çap materialı **BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) - Azərbaycan Tərəfdaşlıq Proqramı**
"Azərbaycanda iribuynuzlu damazlıq heyvanların cins tərkibinin yaxşılaşdırılması və səmərəli yemləmə sistemlərin yaradılması vasitəsilə iribuynuzlu heyvandarlığın inkişaf etdirilməsi"- (UTF/AZE/010/AZE) layihəsi çərçivəsində hazırlanmışdır.

BMT-in Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı
Azerbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi
Binəqədi Rayonu, 8-ci mikrorayon, AZ1115, Bakı, Azərbaycan
fao-az@fao.org

© FAO, 2020
CC BY NC SA

CA9942AZ/1/08.20